C.K.ROULİNQ

Harri Potter

və Fəlsəfə daşı

QANUN NƏŞRİYYATI

J.K. ROWLING

Harry Potter

and The Philosopher's Stone

On birinci doğum günündə Harri özünün adi uşaq olmadığını, əslində sehrbaz olduğunu və əfsanəvi sehrbazların yetim oğlu olduğunu öyrənir. Dursli ailəsi ilə keçirdiyi adi həyatından uzaqlaşaraq Harri, unudulmaz səfərə – Sehrbazlıq və Cadugərlik Məktəbi Hoqvartsa yollanır.

Hoqvartsda Harri, sadiq dostları Ron Vizli və ağıllı Hermione Qreyncer ilə tanış olur və sehr dünyasının sirlərini öyrənməyə başlayır. Amma hər şey qaydasında deyil. Qaranlıq bir güc yenidən hərəkətə keçir və Harri öz keçmişi və tarixdə ən qorxulu qara cadugər Lord Voldemortla olan əlaqəsi haqqında həqiqətləri öyrənir.

Harri keçmişinin sirləri və ölümsüzlük bəxş edən sehrli bir obyekt – Fəlsəfə Daşı haqqında daha çox öyrəndikcə, qarşısına çıxan çətinliklər, sehr və təhlükələr onun cəsarətini sınağa çəkir...

MÜNDƏRİCAT

I fəsil. XİLAS OLAN OĞLAN 7
II fəsil. YOXA ÇIXMIŞ ŞÜŞƏ 27
III fəsil. NAMƏLUM ADAMDAN MƏKTUB 42
IV fəsil. AÇARLARIN MÜHAFİZƏÇİSİ 59
V fəsil. ÇƏP DÖNGƏ 76
VI fəsil. DOQQUZ VƏ DÖRDDƏ ÜÇ NÖMRƏLİ
PLATFORMADAN SƏYAHƏT 107
VII fəsil. MÜƏYYƏNLƏŞDİRİCİ ŞLYAPA 134
VIII fəsil. SEHRLİ ZƏHƏR HAZIRLAMAQ ÜZRƏ MÜTƏXƏSSİS 155
IX fəsil. GECƏYARISI DUEL 169
X fəsil. HELLOVİN 193
XI fəsil. KVİDDİÇ 212
XII fəsil. ERİSED GÜZGÜSÜ 228
XIII fəsil. NİKOLAS FLAMEL 253
XIV fəsil. NORBERT ADLI ƏJDAHA 268
XV fəsil. QADAĞAN OLUNMUŞ MEŞƏ 285
XVI fəsil. LÜKƏ TULLANMA 308
XVII fəsil. İKİÜZLÜ ADAM 339

I FƏSİL

XİLAS OLAN OĞLAN

Mister və missis Durslilər Rivet Drayv küçəsində 4 nömrəli evdə yaşayır və həmişə fəxrlə bildirirdilər ki, onlar, şükür Allaha, tamamilə normal insanlardır. Kimdən olsa da, onlardan gözləmək olmazdı ki, onlar nə vaxtsa, hansısa qəribə və ya müəmmalı vəziyyətə düşsünlər. Mister və missis Durslilər istənilən qəribəliyə, müəmmaya və bu kimi boş şeylərə həmişə pis baxırdılar. Mister Dursli drel istehsalıyla məşğul olan "Hranninqs" firmasına başçılıq edirdi. O, çox qısa boyunlu və lopa bığlı kök kişiydi. Missis Dursliyə gəldikdə isə o, arıq, kürən qadınıydı, boynu isə boyuna uyğun nisbətdən demək olar ki, iki dəfə uzun idi. Amma bu qüsur onun xeyrinə idi, çünki missis Dursli vaxtının çoxunu qonşuları pusub onların söhbətlərinə qulaq asmaqla keçirirdi. Belə uzun boyunla başqalarının çəpərinə boylanmaq çox rahat idi.

Mister və missis Durslilərin Dadli adlı balaca oğulları vardı. Onların fikrincə, bu oğlan dünyanın ən gözəl uşağı idi.

Durslilər ailəsi arzulanması mümkün olan hər şeyə sahib idi. Amma onların bir sirri vardı və dünyada ən çox qorxduqları şey də o idi ki, kimsə bu sirdən xəbər tutar. Durslilər hətta təsəvvür belə edə bilmirdilər ki, Potterlər haqqında həqiqət aşkara çıxsa, onların başına nələr gələr. Məsələ burasındaydı ki, missis Potter missis Durslinin doğmaca bacısıydı, amma onlar artıq bir neçə ildir ki, bir-birini görmürdülər. Missis Dursli hətta özünü elə göstərirdi ki, guya onun, ümumiyyətlə, bacısı yoxdur, çünki bacısı və bacısının heç nəyə yaramayan əri Durslilərin tam əksi idilər.

Durslilər fikirləşəndə ki, Potterlər bir gün onların küçələrinə gələ bilərlər, az qala dəli olurdular. Durslilər bilirdilər ki, Potterlərin də balaca oğlu var, onu heç vaxt görməmişdilər. Ər-arvad qətiyyən istəmirdilər ki, Dadli belə valideynlərin övladıyla ünsiyyətdə olsun.

Çərşənbə axşamı, darıxdırıcı və boz bir səhərdə mister və missis Durslilər yuxudan ayılanda – bizim əsl tarixçəmiz məhz bu səhərdən başlayır – heç kim, hətta buludlarla örtülmüş göy də bilmirdi ki, tezliklə bütün ölkədə qəribə və müəmmalı hadisələr baş verəcək. Mister Dursli özünün ən pis qalstuklarından birini bağlaya-bağlaya burnunun altında hansısa mahnının melodiyasını mızıldayırdı. Missis Dursli isə müqavimət göstərən və bağıran Dadlini hündür uşaq stuluna oturdub xoşbəxt təbəssümlə ərinə məhəllənin son dedi-qodularını danışırdı. Məhz bu an pəncərənin önündən uçub keçən böyük bayquşu onlardan heç biri görmədi.

Doqquzun yarısında mister Dursli çantasını götürdü, missis Durslini öpdü və vidalaşmaq üçün Dadlini də öpməyə cəhd etdi. Amma onun bu cəhdi baş tutmadı, çünki Dadli

bərk qəzəblənmişdi (bu, tez-tez baş verirdi). O, stulda irəli-geri yırğalanır, boşqabındakı sıyığı götürüb divara sürtürdü.

– Ah, mənim balacam – ağzından zor-zülüm bu sözləri çıxara bilən mister Dursli onlardan ayrıldı və maşınına oturub həyətdən çıxdı.

Və dərhal da əcaib bir mənzərəylə qarşılaşdı – küçənin kənarında önünə xəritə sərilmiş bir pişik vardı və o, nəsə öyrənmək istəyirmiş kimi diqqətlə bu xəritəyə baxırdı. İlk saniyələrdə mister Dursli gördüklərinin fərqinə varmadı. O, yalnız pişiyi ötüb keçəndən sonra ayıldı, əyləci basıb cəld geri boylandı. Rivet Drayv küçəsinin kənarında həqiqətən də zolaqlı bir pişik vardı, amma xəritə-filan gözə dəymirdi.

Mister Dursli öz-özünə mızıldandı:

– Gör adamın gözünə nələr görünür!

Yəqin ki, günahkar tutqun səhər və fanarın sönük işığıydı. Hər ehtimala qarşı, mister Dursli gözlərini yumub-açdı, pişiyə bir də baxdı. Pişik də ona baxırdı. Mister Dursli çevrilib maşını yerindən tərpətdi, amma arxanı göstərən güzgüdə pişiyə baxmaqda davam etdi. Bu dəfə də gördü ki, pişik üstündə "Rivet Drayv küçəsi" yazılan lövhəni oxuyur.

– Yox, əlbəttə pişik oxumur, – o, tələsik öz fikirlərinə düzəliş verdi, – sadəcə lövhəyə baxır. Axı pişiklər oxumağı bacarmırlar, elə xəritə də öyrənə bilməzlər.

Mister Dursli başını silkələdi ki, pişiyi fikrindən çıxarsın. Sonra da bu gün baş tutacaq böyük drel sifarişi haqqında fikirləşməyə başladı.

Amma o, şəhər kənarındakı evindən Londonun mərkəzinə çathaçatda bayaqdan beynini doldurmuş drellər bir göz qırpımında fikrindən çıxdı, çünki ənənəvi səhər tıxacına tuş gəlib həmişəki kimi bekarlıqdan ətrafa boylanmağa başlayan kimi

küçədə qəribə paltarlı çoxlu adam gördü. Onlar mantiyada idilər.

Mister Dursli möhkəm qəzəbləndi. Onun axmaq geyimli adamlardan xoşu gəlmirdi. Nə geyindikləri bəlli olmayan gənclər azmış kimi, indi də hansısa axmaq modaya uymuş bu mantiyalılar! Mister Dursli barmaqlarıyla sükanı döyəclədi. Elə həmin an da gözü yol kənarındakı bir dəstə adama sataşdı. Onlar qızğın şəkildə pıçıldaşırdılar. Üstəlik, onların bəzisi heç də cavan deyildi – biri hətta yaşca ondan böyükdü, amma zümrüd rəngli mantiya geyinmişdi! Əsl tip idi! Birdən mister Durslinin ağlına gəldi ki, bu məchul şəxsiyyətlər ya yardım toplamaqla, ya da hansısa buna bənzər bir işlə məşğuldurlar. Hə, elə belədir!

Tıxacda dayanmış maşınlar, nəhayət, hərəkətə başladılar. Bir neçə dəqiqədən sonrasa mister Dursli artıq "Hranninqs" firmasının dayanacağına çatmışdı. Onun beyni yenə də drellərlə məşğuldu.

Mister Durslinin kabineti doqquzuncu mərtəbədəydi. Burda o, həmişə arxası pəncərəyə tərəf otururdu. Əgər üzü pəncərəyə tərəf oturmağa üstünlük versəydi, çətin ki, bu səhər drellər haqqında fikirləşə bilərdi. Amma o, həmişəki kimi oturmuşdu və buna görə də uçub keçən bayquşları görmədi. İşə bir bax! Bayquşlar gecə yox, günün günorta çağı uçurdular! Üstəlik, bayquşlar meşə quşlarıydı və London kimi böyük şəhərlərdə yaşamırdılar.

Mister Durslidən fərqli olaraq küçədəki adamlar bu bayquşları gördülər. Onlar təəccübdən ağızları açıla qalmış halda bu bayquşları bir-birinə göstərirdilər. Bu adamların əksəriyyəti həyatlarında bircə dəfə olsun bayquş görməmişdilər, hətta gecə vaxtı belə!